**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEVİL ŞİVƏXAN qızı BƏHRƏMOVA**

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DİN SİYASƏTİ

İxtisas: 5503.02-Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AV T O R E F E R A T I**

**BAKI-2018**

***Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Əliyevşünaslıq" şöbəsində yerinə yetirilmişdir***

**Elmi rəhbər:**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar Elm Xadimi,*
*Dövlət Mükafatı Lauratı* **Y.M.Mahmudov**

**Elmi məsləhətçi:**
*Tarix üzrə elmlər doktoru* **Ə.Q.Qasımov**

**Rəsmi opponentlər:**
*Tarix üzrə elmlər doktoru, professor* **A.H.Paşazadə**
*Tarix üzrə fəlsəfə doktoru, dosent* **S.Z.Quliyeva**

**Aparıcı müəssisə:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02 – Vətən tarixi, 5502.01 – Ümumi tarix, 5507.01 - Beynəlxalq münasibətlər tarixi və 5509.01 – Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının "___" _________il tarixli iclasında saat ____-da keçiriləcəkdir.

**Ünvan**: AZ-1143. Bakı şəhəri, H.Cavid -115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivində tanış olmaq mümkündür

Avtoreferat «______» __________ 2018-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə fəlsəfə doktoru** : **C.Ə.Bəhramov**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan milli tarix elminin tədqiqinə böyük ehtiyac duyulan istiqamətlərindən biri dövlət-din münasibətlərinin öyrənilməsi məsələsidir. Azərbaycan ərazində tarixin müxtəlif mərhələlərində müxtəlif dini inaclar mövcud olmuş, e.ə. VI əsrdən başlayaraq atəşpərəsliyə, yəhudiliyə, xristianlığa və islam dininə inamı gətirən əhali yaşamışdır. VII-VIII əsrlərdə islam dini bütün Azərbaycan ərazisində hakim dinə çevrildi. IX əsrin II yarısından başlayaraq Azərbaycan ərazisində yaranmış dövlətlərin yeritdikləri daxili və xarici siyasətdə islam dinin Azərbaycan xalqının mədəniyyətinin tərkib hissəsi kimi xüsusi yeri vardır. XIX-XX əsrlərdə Azərbaycan xalqının yaşadığı faciələr, onun ərazilərinin tikə-parça edilərək bölüşdürülməsi, işğal olunmuş ərazilərə xristian əhalisinin köçürülməsi, Sovet dövründə islamın qadağan, dini abidələrin məhv edilməsi onu öz dinindən imtina etdirə bilmədi.

Buna görə də 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra yeni milli dövlət quruculuğu prosesində demokratik dəyərlərin və prinsiplərin önə çıxarılması sovet dövrünün ateizm siyasətinin iflası ilə ictimai-siyasi müzakirədə dövlət siyasətində din amilinin yerinin müəyyənləşdirilməsi məsələsini aktuallaşdırdı. Azərbaycan Respublikasıınnın 1995-ci ildə yeni konstitusiyası qəbul edildikdən sonra milli dövlət quruculuğu prosesi zamanı vicdan azadlığının elan edilməsi, məscidlərin və digər dini abidələrin bərpasına başlanılması, dinə marağının, dini icmaların və təşkilatların yaradılmasının nəticəsi olaraq dinin ictimai həyata təsiri də artmış oldu. Bütün bunlar Azərbaycan xalqının tarixən formalaşmış milli xüsusiyyətləri və yeni dövrün tələbləri nəzərə alınmaqla dövlət-din münasibətlərinin uyğun modelinin yaradılmasını tələb edirdi.

Ümummilli lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respuplikasının Ali Sovetinin Sədri, oktyabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçıldikdən sonra dövlətlə din arasında konstruktiv qarşılıqlı münasibətlər yaratmağa nail oldu. Ümummilli lider Azərbaycan Respublikasında yaşayan müxtəlif xalqların və dinlərin nümayəndələrini vahid ideologiya – azərbaycançılıq ideologiyası, tolerantlıq, dözümlülük və fəal sosial-siyasi əməkdaşlıq prinsipləri əsasında birləşdirərək bu gün bütün dünya üçün örnək ola biləcək dövlət-din münasibətləri sistemini yaratdı. Heydər Əliyevin banisi olduğu Azərbaycan dövlətinin din siyasəti zamanın ağır sınaqlarından uğurla çıxaraq cəmiyyətdə siyasi sabitliyin, ictimai anlaşmanın, vətəndaş həmrəyliyinin mühüm amili

oldu. Hazırda dünyəvi Azərbaycan cəmiyyətində insan hüquq və azadlıqlarının, o cümlədən vicdan və dini etiqad azadlığının tam təmin edildiyi demokratik siyasət həyata keçirilir. İctimai həyatda universal dəyərlər – dinlərarası dözümlülük, qarşılıqlı hörmət və anlaşma hökm sürür. Azərbaycan Respublikasında dövlət müstəqillinin bərpasından sonrakı dövrdə heç bir dini-etnik zəmində münaqişə baş verməmişdir. Bütün bunlar Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin optimal modelinin təşəkkül tapdığını təsdiq edir. 1993-cü ildən başlayaraq qazanılmış təcrübə əsasında Azərbaycan respublikasının sosial-siyasi kontekstində dövlət-din münasibətlərinin ümumi meyillərini və xüsusiyyətlərini müəyyənləşdirməyə imkan yaradır.

Digər tərəfdən, Azərbaycan Respublikasının dünyaya inteqrasiyası, qloballaşma prosesləri bü gün ölkədə həyata keçirilən dövlət-din siyasətinin ümumavropa və dünya standartları ilə qarşılıqlı müqayisəli təhlilini tələb edir. Müasir ictimai-siyasi proseslərdə dinin əhəmiyyətinin artması dinin qlobal çağırışlara cavab tapmaq potensialı ilə şərtlənir. Dünyada baş verən qlobal transformasiya prosesləri fonunda ictimai-siyasi həyatda dinin rolu və yeri müəyyən dəyişikliklərə məruz qalır ki, bu da müasir çağırışlara adekvat olaraq onların elmi dəyərləndirilməsini tələb edir.

Mövzunun aktuallığını şərtləndirən mühüm amil bu gün İslam dünyasında baş verən proseslərdir. Heydər Əliyevin din siyasətinin, dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə Azərbaycan Respublikasında dövlət-din münasibətləri sahəsində toplanmış təcrübənin öyrənilməsi və tədqiqi, həm mühüm elmi, həm də qlobal ictimai-siyasi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının bir ölkə kimi bənzərsizliyini şərtləndirən əsas amillərdən bir xalqın tarixən formalaşmış zəngin milli-mənəvi-mədəni irsidir. Azərbaycan tarixən müxtəlif dinləri, mədəniyyətləri, dünyagörüşləri özündə yaşadan, milli dəyərlərini qorumaqla ümumbəşəri dəyərlərə sadiqliyini nümayiş etdirən, ən müxtəlif xalqlara, onların mənəvi dəyərlərinə, etnik-dini identikliyinə tolerant münasibətin mövcud olduğu unikal bir məkandır. Çox təəssüf ki, müasir dövrdə qloballaşma və inteqrasiya proseslərindən ən çox ziyan çəkən elə milli-mənəvi, mədəni dəyərlərdir. Belə vəziyyətdə fərqli, özünəməxsus dəyərlərə və irsə malik xalqların öz identikliyini qoruyub saxlamaq vəzifəsi mühüm milli məsələ kimi ortaya çıxır. Əlbəttə, bu gün Azərbaycan dövlətinin apardığı düşünülmüş daxili və xarici siyasət kursu milli mənəvi dəyərlərimizinvə özünəməxsusluğumuzun qorunub saxlanılmasını təmin edir. Artıq

Azərbaycan Respublikası mədəniyyətlərarası və dinlərarası dialoqun reallaşdığı bir mədəni–intellektual məkana çevrilmişdir.

Heydər Əliyev Azərbaycan xalqının milli-mənəvi irsin qorunub saxlanılmasında, onun inkişaf etdirilməsində, dünya miqyasında təsdiqini tapmasında əvəzsiz rol oynamış, onun fəaliyyəti sayəsində Azərbaycan mədəniyyəti milli-dövlət sərhədlərini aşaraq bəşər mədəniyyətinin inkişafına layiqli töhfələr vermişdir. O həm də Azərbaycan xalqı üçün işlənib hazırlanmış mükəmməl elmi doktrinanın – azərbaycançılıq doktrinasının banisidir. Heydər Əliyev Azərbaycan dövlətinin mükəmməl elmi inkişaf strategiyasını işləyib hazırlamaqla məhdudlaşmayaraq, milli-mənəvi dirçəliş konsepsiyasının əsasını qoymuşdur.

Ümummilli lider Heydər Əliyevin elmi-nəzəri və əməli ideyaları bu gün də aktuallığını itirməmiş və Azərbaycan Respublikasında müasir cəmiyyət quruculuğunda uğurla tətbiq edilir. Bu baxımdan onun nəzəri-ideoloji irsinin öyrənilməsi, ideyalarının tədqiqi və təbliği tarixşünaslıq elminin mühüm istiqamətlərindən birini təşkil edir. Digər tərəfdən, Heydər Əliyev irsinin araşdırılması və yayımlanması gənc nəslin dövlətçilik ruhunda tərbiyə edilməsi, onun ideyalarının ictimai şüurun strukturuna daxil edilməsi baxımından həm də siyasi əhəmiyyət kəsb edir. Bütün bunlar tədqiq olunan mövzunun aktuallığını təsdiq edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın xronloji çərçivəsi əsasən Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi 1993-2003-cü illəri əhatə etsə də, onun din siyasətinin mahiyyətini və əsas istiqamətlərini üzə çıxarmaq üçün onun Azərbaycan SSR-ə rəhbərliyi dövründə – 1969-1982-ci illərdə tarixi-mədəni, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi sahəsində fəaliyyəti də tədqiqat obyekti olmuşdur. Bununla yanaşı, Heydər Əliyevin yeritdiyi din siyasətini dərindən analiz etmək üçün, onun fəaliyyətinə müqayisəli şəkildə yanaşmaq məqsədilə Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin tarixinə, xüsusən də çarizm və sovet hakimiyyəti illərinə qısa nəzər yetirməyi məqsədəuyğun hesab etmişik. Heydər Əliyevin həyata keçirdiyi din siyasətinin müasir şəraitdə davamını, ölkədə tolerantlıq mühitini, din-dövlət münasibətlərinin inkişaf meyillərini araşdırmaq üçün 2003-cü ildən sonrakı dövrə də müraciət edilmişdir.

**Mövzunun öyrənilməsi səviyyəsi.** Dövlət və dinin qarşılıqlı münasibətləri, dövlətin din siyasəti problemi çoxcəhətli olduğundan və fənlərarası tədqiqatların geniş müstəvisində yerləşdiyindən ən müxtəlif elm nümayəndələrinin – tarixçilərin, filosofların, politoloqların, hüquqşünasla-

rın, ilahiyyatçıların, sosioloqların maraq dairəsindədir. Problemlərə dair mövcud tədqiqatları aşağıdakı qrupa ayırmaq olar: Dinin qlobal ictimai-siyasi proseslərdə, dünyanın transformasiyası kontekstində yerinə və roluna dair bir sıra Qərb və çar, sovet və müasir Rusiya Federasiyası tədqiqatçılarının əsərləri həsr edilmişdir. Bu əsərlərdə dövlətlərin din siyasəti, siyasi və dini institutların münasibətlərinin nəzəri-metodoloji əsasları, dinin etnik, milli identlikliyə təsiri, dinin siyasi münaqişələrdə rolu kimi məsələlər araşdırılır.

Hazırda tədqiqatçılar mənəvi təhlükəsizliyi ictimai və humanitar tədqiqatların mühüm istiqaməti kimi nəzərdən keçirirlər. İ.Babiçin və O.Radionovanın [1] V.Naumkinin [2], R.Oliverin [3] və başqa müəlliflərin əsərlərində dinin təhlükəsizliyə təsirinin siyasi aspektləri tədqiq edilmişdir.

Dövlətin dünyəviliyi problemi, məğzi və mahiyyəti M.Boqoslovskinin[4] və A.Verxovskinin[5] əsərlərində araşdırılmışdır.

Azərbaycan Respublikasında din-dövlət qarşılıqlı münasibətləri problemi Azərbaycan tədqiqatçılarından Ə.Əliyevin, [6] A.Əhədovun, [7] M.Ağayevin,[8] R.Aslanovanın,[9] M.Quliyevin (Quluzadənin),[10]

---

[1] Бабич И.Л., Радионова О.В. Террор и практика мультикультурализма, Москва. 2009, 49 с.

[2] Наумкин В.В. Исламский радикализм в зеркале новых концепций и подходов. М.: КомКнига, 2005, 64с.

[3] Olivier Roy. «A Clash of Cultures or a Debate on Europe's Values?» ISIM Review, No. 15, spring 2005.

[4] Богословский М.М. Светскость государства основа благополучного состояния общества. //Электронный ресурс. URL: http://www.humanism. su/ru/articles.phtml?num=000540

[5] Пределы светскости: общественная дискуссия о принципе светскости и о путях реализации свободы совести / Сост. А.М. Верховский. М.: Центр Сова. 2005, 268с.

[6] Əliyev Ə. Din və mənəviyyat. Bakı: Elm, 1986, 267 s.; Əliyev Ə. Mədəniyyət və din. Bakı: Çaşıoğlu, 1999,76 s.

[7] Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.; Əhədov A. Azərbaycanda İslamın modernləşdirilməsi. Bakı: Azərnəşr, 1995, 155 s.

[8] Ağayev M. XX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində din problemi. Bakı: Nurlan, 2008, 105 s.

9 Aslanova R.N. İslam və mədəniyyət. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2002, 405 s.; Aslanova R.N İslam: mənəvi irs və müasirlik. Bakı: 2000, 63 s.

10 Quliyev M. N. Azərbaycan SSR-də dövlət-din münasibətləri tarixi (1920-1991-cci illər)/ Tarix üzrə elmlər dok. avtoreferatı. Bakı: 2010, 28 s. Quluzadə M. Azərbaycanda dövlət və din münasibətləri. İslam dininin timsalında. 1920-2000-ci illər. Bakı, 2002 Quluzadə M. Dinimiz dünən və bu gün, Bakı, Azərbaycan Ensiklopediyası, 1996, 152 s.

N.Bəhlulun, [1] R.Əliyevin, [2] R.Mehdiyevin, [3] A.Məmmədovun, [4] S.Xəlilovun,[5] Z.Məmmədovun,[6] E.Səmədovun[7],Ə.Q. Qasımovun[8] və başqalarının əsərlərində də tədqiq olunmuşdur.

Heydər Əliyev irsi, bu irsin mənəvi-mədəni aspektləri Azərbaycan ictimai elm nümayəndələrinin ən çox müraciət etdikləri mövzulardan biridir. Əliyevşünaslıq elmi istiqamətin mühüm sahəsini təşkil edən Heydər Əliyevin milli-mənəvi inkişaf strategiyası bir sıra Azərbaycan alimlərinin tədqiqat obyekti olmuşdur. Akademik R.Mehdiyevin əsərlərində[9] Heydər Əliyevin zəngin elmi-nəzəri irsi təhlil edilmiş, onun Azərbaycan Respublikasında ictimai fikrin inkişafında, milli dövlətçiliyin təşəkkül tapmasında, milli ideologiyanın və onun bel sütunu olan azərbaycançılıq ideologiyasının hazırlanmasında tarixi xidmətləri işıqlandırılmışdır. Akademik Y.M.Mahmudov Heydər Əliyevin Azərbaycan tarixindəki yeri və rolunu işıqlandıran bir sıra sanballı əsərlərin müəllifidir. Onun monoqrafiya və əsərlərində Heydər Əliyevin siyasi fəaliyyəti bir sıra məqamları ilə yanaşı, milli mənəvi irsimizin, dini dəyərlərimizin qorunması və inkişafı sahəsində həyata keçirdiyi işlər geniş təhlil edilmişdir.

Heydər Əliyevin milli mənəvi dəyərlərin qorunub saxlanması və inkişaf etdirilməsi sahəsində həyata keçirdiyi strategiyanın müxtəlif

---

[1] Bəhlul N. İslam və Qərb: dialoq, yoxsa toqquşma?// İşığa doğru. İran inqilabının 24-cü ildönümünə həsr olunmuş xüsusi buraxılış. Bakı: Kosər, 2003, s. 50-55

[2] Əliyev R. Dinin əsasları. Bakı: 2003, Qismət, 2004, 272 s.; Əliyev R. Dövlət və din (çıxışlar və məqalələr toplusu), Bakı: Avropa, 2006, 94 s.

[3] Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008, 215 s.

[4] Məmmədov A. Vəhabilik. Tarixi, ideya sələfləri və əsas prinsipləri. Bakı: Nurlar, 2008, 235 s.

[5] Xəlilov S. Dinlərin və sivilizasiyaların dialoqu/ "Azərbaycan" qəz. 2009, 13 noyabr.

[6] Məmmədov Z. Hüquqi dövlət və din// "Dövlət və Din" jurnalı, 2009, №5, s.52-57

[7] Səmədov E. Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması. Bakı: AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu. 2009, 169 s. 583

[8] Qasımov.Ə.Q. Heydər Əliyev və Naxçivan Muxtar Respublikasın inkişaf tarixi (1969-2003-cü illər). Bakı.Turxan.2013,2013,264 s.

[9] Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI YNE, 2005, 463 s.; Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı: AME, 2000, 286 s.; Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008, 215 s.; Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. Bakı: Azərbaycan, 2010, 413 s.; Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. c. 1, Bakı: Azərbaycan, 2008, 581 s.; Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar, Bakı: Polygraphic Production, 2006, s

aspektləri, bu strategiyanın mühüm tərkib hissəsi olan Ümummilli liderin din siyasəti T.Əfəndiyev, [1] A.A.Əl-Fərəh, [2] R.Əliyev, [3] R.Xəlilov, [4] S.Xəlilov,[5] Z.Sərdarovun[6] əsərlərində, bir sıra kollektiv əsərlərdə və məqalələr toplusunda[7] öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin siyasi-ideoloji nəzəriyyəsi, azərbaycançılıq ideologiyasının elmi-nəzəri əsasları, xalqımızın mənəvi dəyərləri ilə bağlı fikirləri N.Cəfərovun, R.Aslanovanın, S. Xəlilovun və başqalarının əsərlərində təhlil edilmişdir.[8]

Heydər Əliyevin həyata keçirdiyi din siyasətinin, Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin müxtəlif aspektləri bir neçə doktorluq və fəlsəfə doktoru dissertasiyalarının [9] tədqiqat obyekti olmuşdur.

---

[1] Əfəndiyev T. Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı: 2011, 328 s.

[2] Əl-Fərəh Adil Abdulla. Heydər Əliyev və milli mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 s.

[3] Əliyev R. Heydər Əliyev, Din və mənəvi dəyərlər. Bakı: İrşad, 1998. 82 s.

[4] Xəlilov (Ulusel) R. Heydər Əliyev və Azərbaycan – Dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı: İdeal-Print, 2010, 608 s.

[5] Xəlilov S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: Elm, 2002, 233 s.

[6] Sərdarov Z. Heydər Əliyev və milli mübarizə tariximiz. Bakı: Çinar-Çap, 2008, 166 s.

7 Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı: Əbilov, Zeynalov və oğulları NPE, 2007, 424 s.; Heydər Əliyev və dini-mənəvi dəyərlər. Dini Qrumlarla İş üzrə Dövlət Komitəsinin Bülleteni, 2004, №10, s. 6-7; Terrorizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu http://www.e-qa nun.az/alpidata/framework/data/3/f_3855.htm

[8] Cəfərov N. Azərbaycan müsəlman mədəniyyəti// “Dövlət və din” ictimai fikir toplusu, 2007, mart, s. 79-90

[9] Abdullayeva N.Ə. Milli mənəvi dəyərlərimizin formalaşmasında İslamın yeri və rolu: Fəlsəfə üzrə fəlsəfə dok. ...dis. Bakı: 2010, 153 s.; Əhmədov A. İslam Konfransı Təşkilatı və Azərbaycan Respublikası. 1991-2006-cı illər. Tarix üzrə fəlsəfə doktorunun diss.. Bakı: 2013, 160 s.; Əliyeva S. Müasir Azərbaycan mədəniyyətinin inkişafında İslam dininin rolu. Kulturologiya üzrə fəlsəfə doktorunun diss.. Bakı: 2005. 152 s.; Həsənli A. Qloballaşma şəraitində Azərbaycanda dini-mənəvi dəyərlərin inkişaf tendensiyaları. Fəlsəfə üzrə fəlsəfə doktorunun diss. Bakı: 2013, 129 s.; Pişnamazzadə S. Heydər Əliyev və Azərbaycan Respublikasında milli-mənəvi dəyərlərin qorunması. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2008, 24 s.; Quliyev M.N. Azərbaycan SSR-də dövlət-din münasibətləri tarixi (1920-1991-cci illər) /Tarix üzrə elmlər dok. avtoreferatı. Bakı: 2010, 28 s.;

Tədqiq olunan problemlə bağlı məsələlərə Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlərdə, [1] iki cildlik "Heydər Əliyev" monoqrafiyasında [2] və "Azərbaycan Respublikasının tarixi" iki cıldliyində [3] də xüsusi diqqət yetirilmişdir.

Tədqiqat aparılarkən dövri mətbuatda, elmi jurnallarda, xüsusən "Dövlət və din" jurnalında çap edilmiş rəsmi materiallardan və ayrı-ayrı müəlliflərin məqalələrindən də istifadə edilmişdir.

Adı çəkilən əsərlər "Əliyevşünaslıq" elmi istiqamətin zənginləşməsində, Heydər Əliyevin elmi-nəzəri irsinin öyrənilməsində mühüm rol oynasa da, bu əsərlərdə araşdırılan problemə münasibətdə daha çox nəzəri-ideoloji mülahizələr və subyektiv fikirlər üstünlük təşkil edir, tarixi tədqiqat metodlarından kifayət qədər istifadə olunmamışdır.

İkincisi, Azərbaycan xalqının milli mənəvi irsinin qorunması və möhkəmləndirilməsi sahəsində Heydər Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasət, xüsusən onun din siyasəti bir qayda olaraq onun siyasi, dövlətçilik fəaliyyəti kontekstində və fonunda nəzərdən keçirilmişdir.

Üçüncüsü, tədqiqatlar əksər hallarda Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə (1993-2003-cü illərə) həsr edilibdir. Halbuki Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycan SSR-ə rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi xalqımızın milli mənəvi həyatında da dirçəliş başlanması prosesi danılmaz bir həqiqətdir. Bu baxımdan M.Qasımlının monoqrafiyası [4] xüsusi əhəmiyyət kəsb edir. Müəllif elmi dövriyyəyə ilk dəfə daxil etdiyi mənbələrə və elmi ədəbiyyata əsaslanaraq XX əsrin 70-80-ci illərində Heydər Əliyevin azərbaycanlıların birliyinə nail olunması, tarixi-mədəni, milli mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi sahəsində fəaliyyəti elmi-tarixi baxımdan öyrənmişdir. Y.M.Mahmudovun qeyd etdiyi kimi, o dövrdə Heydər Əliyevin həyata keçirdiyi bütün əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru

---

[1] Azərbaycan Respublikası. 1991-2001. Bakı: XXI – Yeni Nəşr Evi, 2001, 360 s.; Azərbaycan tarixi. 7 cilddə. VII cild. Bakı: Elm, 2003, 676 s

[2] Heydər Əliyev. İki cilddə. I cild. Bakı: Turxan NPB, 2013, 678 s.; Heydər Əliyev. İki cilddə. II cild. Bakı: Turxan NPB, 2013, 704 s.

[3] Azərbaycan Respublikasının tarixi (1991-2016-cı illər), I cild.1991-2003-cü illər. - Bakı: Turqay NPB, 2016, 704 s.;. Azərbaycan Respublikasının tarixi (1991-2016-cı illər), II cild. 2003-2016-cı illər. - Bakı: Turqay NPB, -2016, 716 s.;

[4] Qasımlı M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universitenin nəşriyyatı, 2006, 608 s.

oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir.[1] Bütün bunlar, həm də Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyi dövrləri arasında məntiqi əlaqənin, dialektik vəhdətin mövcudluğunu bir daha sübut edir. Nəhayət, bu əsərlərin əksəriyyəti mənbə bazası zənginliyi ilə fərqlənmir. Bu isə tarixşünaslıq elmi, tarixi tədqiqatlar üçün mühüm amillərdən biri hesab olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövzuya aid ədəbiyyatın təhlili göstərir ki, son dövrlərdə Heydər Əliyevin milli mənəvi inkişaf strategiyasının mühüm tərkib hissəsi olan din siyasətinin tarixi aspektdən araşdırılması sahəsində çox işlər görülsə də, bütövlükdə Ümummilli liderimizin din siyasəti, onun Azərbaycan Respublikasının rəhbərliyinin hər iki dövründə, milli mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi sahəsindəki fəaliyyəti ayrıca tədqiqat obyekti olmamış, kompleks şəkildə araşdırılmamışdır. Təqdim olunan işin məqsədi mənbələrin, tarixi ədəbiyyatın, ilk növbədə Heydər Əliyevin zəngin nəzəri irsinin təhlili əsasında Ulu Öndərin rəhbərliyi altında Azərbaycanda dövlət-din münasibətlərinin inkişaf mərhələlərini, din siyasətinin əsas istiqamətlərini, dini etiqad azadlığının vəziyyətini və müasir mərhələdə din siyasətinin başlıca aspektlərini təhlil etməkdən, ölkədə konfessiyalararası münasibətlər, tolerantlıq və multikulturalizm sahəsində toplanmış təcrübəni öyrənməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşagıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- Azərbaycanın tarixi ərazilərində müxtəlif dinlərin yayılması və inkişafı prosesini izləmək, xalqın milli mənəvi inkişafında İslam dininin rolunu və əhəmiyyətini açıb göstərmək;
- Çarizm və sovet dövründə Şimali Azərbaycanda tətbiq edilən din siyasətinin əsas mahiyyətini, dini strukturların formalaşması və fəaliyyəti, dini etiqad və vicdan azadlığı sahəsində mövcud vəziyyəti araşdırmaq;
- XX əsrin 70-80-ci illərində sovet sisteminin ateizm siyasəti şəraitində Heydər Əliyevin fəaliyyətinin təhlilini verməklə onun Azərbaycan xalqının mədəni irsinə münasibətini açıb göstərmək;

[1] Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 324 s.

- Heydər Əliyevin xalqın mənəvi, əxlaqi dəyərlərinin, milli adət-ənənələrinin, tarixi-dini abidələrinin qorunması, inkişaf etdirilməsi və tanıdılması sahəsində həyata keçirdiyi kompleks tədbirləri təhlil etmək;

- Dövlət müstəqilliyinin bərpasının ilk illərində ölkədə dini vəziyyəti təhlil etmək, dövlət-din münasibətlərində baş verən dəyişiklikləri izləmək;

- Heydər Əliyevin qloballaşma dövründə milli mənəvi dəyərlərin qorunub saxlanılması istiqamətində fəaliyyətini təhlil etmək;

- Ümummilli Liderin mənəvi-əxlaqi dəyərlər sistemində, gənclərin mənəvi tərbiyəsində dinin rolu və yeri haqqında fikirlərini açıb göstərmək;

- Heydər Əliyevin Azərbaycan Respublikasında dini tolerantlığın və əqidə azadlığının təmin edilməsində xidmətlərini işıqlandırmaq;

- Azərbaycan Respublikasının İslam ölkələri və İKT arasında qarşılıqlı əlaqələrinin təşəkkül tapmasında və inkişafında Heydər Əliyevin fəaliyyətini təhlil etmək;

- Müasir dövrdə Azərbaycan Respublikasında həyata keçirilən din siyasətinin və dövlət-din münasibətlərinin xarakterik xüsusiyyətlərini aydınlaşdırmaq;

- Dini tolerantlıq, dinlərarası dialoq və multikulturalizm sahəsində Azərbaycanın təcrübəsini və nümunəsini açıb göstərmək.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi yazılarkən çox zəngin və çoxşaxəli mənbələrə müraciət edilmişdir. Həmin mənbələri şərti olaraq bir neçə qrupa bölmək mümkündür:

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə etdiyi məruzələr, nitqlər, çıxışlar, verdiyi müsahibələr milli-mədəni dəyərlərimizin, mənəvi irsimizin qorunması və inkişaf etdirilməsi sahəsində Ulu Öndərin yorulmaz fəaliyyətini, onun din siyasətinin müxtəlif istiqamətlərini araşdırmaq baxımından əvəzsiz mənbələrdir. Bu mənbələrdə İslam dini, xalqımızın mənəviyyatı, mədəniyyəti haqqında çox qiymətli və əvəzsiz fikirlər, elmi-nəzəri müddəalar, nəticələr vardır. Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə etdiyi çıxışlar, məruzələr, verdiyi bəyanatlar onun 45 clddən ibarət çoxcildliyində toplanmışdır.[1]

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. Çoxcildlik 1-46. Bakı: 1997-2013.

Azərbaycan Respublikasına rəhbərlik edərkən Heydər Əliyevin həyata keçirdiyi din siyasətinə dair materiallar həmçinin bir çox toplu və çoxcildliklərdə toplanmışdır. [1]

Tədqiqatın mənbəşünaslıq bazasını həmçinin, universal və regional səviyyəli beynəlxalq sənədlərdə, bəyannamələrdə, paktlarda, qətnamələrdə və digər sənədlərdə [2] öz əksini tapmış beynəlxalq hüququn norma və prinsipləri təşkil edir.

Tədqiqatın mühüm mənbələri sırasına Azərbaycan Respublikasında din siyasətini və dövlət-din münasibətlərini, vicdan və etiqad azadlığı məsələlərini tənzimləyən qanunvericilik aktları, müxtəlif normativ aktlar[3]da daxildir.

Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə Heydər Əliyevin din siyasətinin mühüm istiqamətini təşkil edən İslam Konfransı

---

[1] Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət/ "Azərbaycan" qəz., 2000, 30 dekabr Əliyev H. Dinimiz xalqımızın milli mənəvi sərvətidir. Bakı: Əbilov, Zeynalov və oğulları, 1999, 165 s. Əliyev H. Müstəqillik yolu. Bakı: Azərbaycan Universiteti, 1997, 135 s. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. I cild. Bakı: Turxan, 2013, 665 s. Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. II cild. Bakı: Turxan, 2013, 640 s. Heydər Əliyev. Mədəni irsimizin keşiyində. 2 kitabda, Bakı: Azərbaycan, 2001. Heydər Əliyev və dini-mənəvi dəyərlər. Dini Qrumlarla İş üzrə Dövlət Komitəsinin Bülleteni, 2004, №10, s. 6-7 Heydər Əliyev və mədəniyyət. 3 cilddə, III cild. Bakı: Nurlar, 2008, 536 s. Heydər Əliyev və mənəvi dəyərlər. Bakı: Nurlan, 2003, 276 s. Heydər Əliyev və Şərq. 6 cilddə. IV cild. Bakı: Çaşıoğlu, 2005,357 s. Heydər Əliyev siyasəti: Tolerantlıq. Bakı: 2015, 506 s. Gələcək gənclərindir. Bakı: Azərbaycan, 2004, 496 s.

[2] Din və etiqad azadlığı. Beynəlxalq, regional və milli hüquqi sənədlərdə. AMEA İnsan Hüquqları İnstitutu. Bakı: Elm və Təhsil, 2013, 211 s. YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı: Azərbaycan, 1998, 640 s.; Государства и религии в Европейском Союзе. /Под ред. М.А.Воскресенского, А.А.Красикова, Р.Н.Лункина, Р.А.Подопригоры, Л.С.Симкина и И.А.Шалобиной. М.: Институт Европы РАН, ТЦ Юнеско, 2009, 720 с.; Европейская Конвенция о защите прав человека и основных свобод (Рим 4 ноября 1950) // Международные акты о правах человека. Сборник документов. М.: Издательство НОРМА, - 2000 - С.539-551.

[3] Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər. Bakı:, 2011, 239 s.; Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının qanunu. Əlavələr və dəyişikliklərlə. http://scwra.gov.az/docs/169/ Heydər Əliyev və dini-mənəvi dəyərlər. Dini Qrumlarla İş üzrə Dövlət Komitəsinin Bülleteni, 2004, №10, s. 6-7.

Təşkilatı və İslam dövlətləri ilə əlaqələr haqqında materialların toplandığı toplular[1] da tədqiqatın mühüm mənbə bazasını təşkil edir.

Müasir dövrdə Azərbaycan dövlətinin din siyasətini, ölkədə dini vəziyyət, tolerantlıq və multikulturalizm siyasəti, dinlərarası və mədəniyyətlərarası dialoqun həyata keçirilməsi ilə bağlı məsələlərin öyrənilməsində Azərbaycanın dövlət başçısı İlham Əliyevin əsərlərinin, çıxış və bəyanatlarının toplandığı "İnkişaf məqsədimizdir" çoxcildliyi,[2] eləcə də digər nəşrlər mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya hazırlanarkən müəllif Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, müxtəlif dini təşkilatların arxivlərinin,[3] dövlət qurumları, beynəlxalq və ictimai, elmi təşkilatların elektron resurslarındakı[4] materiallarından da istifadə etmişdir.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işinin metodoloji əsasını tarix elmində geniş yayılmış olan ümumi araşdırma üsulları təşkil edir; bunlar ilk növbədə elmi analiz və sintez, mənbə materiallarının müqayisəli təhlili, araşdırılan problemə aid materialların təhlili gedişində zəruri olan deduksiya, analogiya, mətbuat materiallarının kontent təhlili, müşahidə və proqnozlaşdırma metodlarıdır. Deduksiya və induksiya, analiz və sintez metodları tədqiqat prosesində əldə olunmuş ayrı-ayrı faktları və nəticələri ümumiləşdirməyə imkan vermişdir.

---

[1] Azərbaycan beynəlxalq aləmdə. 5 cilddə. V cild. Bakı: Göytürk, 1999, 476 s. Azərbaycan gəncliyi Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləyir- http://www.ikisahil.com/index.php Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında. Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin nəşri. Bakı:, Apastrof, 2008, 414 s.

[2] Əliyev İ. İnkişaf məqsədimizdir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məktublar. Müraciətlər. Fərmanlar. Çoxcildlik 1-29. Bakı: 2008-2016.

[3] Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi Azərbaycan Milli Məclisinin Arxivi (AR MMA), Beynəlxalq münasibətlər şöbəsinin materialları AR MMA, Fond 2941 Azərbaycan Respublikası. 1991-2001. Bakı: XXI – Yeni Nəşr Evi, 2001, 360 s. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond 1, siyahı 74, iş 42.

4 Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı http://www.president.az/ Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı www.cabmin.gov.az *Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı* http://www.scwra.gov.az/ *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı* http://www.mfa.gov.az/ Heydər Əliyev İrsini Araşdırma Mərkəzinin elektron kitabxanası www.aliyev-heritage.org http://www.mys.gov.az Heydər Əliyev Fondunun internet saytı http://www.heydar-aliyev-fundation.org www.heydar-aliyev.org

Tarixi retrospektiv metod dövlət-din münasibətlərini tarixi inkişafda izləməyə kömək edir. İnstitusional metod dövlət-din münasibətlərini hakimiyyət institutları və dini qurumlar arasında münasibətlər səviyyəsində təhlil etməyə, kontent-analiz metodu din və dövlət münasibətlərini tənzimləyən beynəlxalq və milli qanunvericiliyi öyrənməyə və dini siyasətin əsasında dayanan fundamental prinsipləri üzə çıxarmağa imkan verir.

Ümumi elmi metodlarla yanaşı, tədqiqatın predmeti ilə bağlı elmi və publisistik araşdırmalardakı ümumiləşdirmələr, mühakimələr və elmi müddəalar da dissertasiyanın nəzəri-metodoloji əsasını təşkil etmişdir. Dissertasiyanın empirik bazasını isə yuxarıda icmalını verdiyimiz sənədli materiallar təşkil etmişdir.

Tədqiqatın elmi-metodoloji əsasını həmçinin Heydər Əliyevin milli mənəvi dəyərlərə, mədəni irsə dair nəzəri irsinin əsas müddəaları təşkil etmişdir. Dahi liderin əsərləri dissertasiyanın faktoloji, nəzəri və metodoloji bazasını təşkil etməklə yanaşı, irəli sürülmüş vəzifələrin yerinə yetirilməsində də əsas vasitə olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində qarşıya qoyulan bütün elmi məsələlər araşdırılarkən ilk mənbələrin məlumatları, ilk növbədə fakt materialları əsas götürülmüşdür. Tədqiqat işində Heydər Əliyevin din siyasəti kompleks şəkildə araşdırılmış və aşağıdakı elmi-nəzəri nəticələr əldə edilmişdir:

- Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə dövlətin din siyasətinin əsas xüsusiyyətləri müəyyən edilmişdir;
- XX əsrin 70-80-ci illərində sovet sisteminin ateizm siyasəti fonunda Heydər Əliyevin Azərbaycan xalqının mənəvi və əxlaqi dəyərlərinin, adət-ənənələrinin qorunması ilə bağlı həyata keçirdiyi siyasi kursun mahiyyəti, nəticələri və əhəmiyyəti təhlil edilmişdir;
- Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti kimi ölkədə dövlət-din münasibətlərinin tənzimlənməsi, vicdan və dini etiqad azadlığının təmin edilməsi sahəsində xidmətləri aydınlaşdırılmışdır;
- Ölkədə dini tolerantlıq və dialoqun əldə edilməsində Heydər Əliyevin din siyasətinin əhəmiyyəti göstərilmişdir;
- Heydər Əliyevin nəzəri irsində və dünyagörüşündə dini əxlaqi dəyərlərin yerinə və roluna diqqət yetirilmişdir;
- İslam dünyasında həmrəyliyin və birliyin möhkəmləndirilməsində milli liderin rolu işıqlandırılmışdır;
- Müasir dövrdə Azərbaycan dövlətinin din siyasətinin spesifik xüsusiyyətləri təhlil edilmişdir;

- Hazırda Azərbaycan Respublikasında mövcud olan dini tolerantlıq və etiqad azadlığı, eləcə də multikulturalizmin xarakterik cəhətləri təhlil edilmiş və bütün bunların əsasında Heydər Əliyevin din siyasətinin durduğu müəyyən edilmişdir;

- Azərbaycan xalqının mədəni-mənəvi tərəqqisində dini dəyərlərin əhəmiyyəti rol oynadığı aydınlaşdırılmışdır.

**Dissertasiyanın nəzəri praktiki əhəmiyyəti**. Dissertasiya işinin əsas müddəaları və nəticələrindən elmi-tədqiqat işlərinin yazılmasında, Azərbaycan tarixinə dair dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, ali və orta ixtisas məktəblərinin müvafiq fakültələrində mühazirələrin oxunmasında, seminarların keçirilməsində və buraxılış işlərinin yazılmasında istifadə edilə bilər. Tədqiqatın nəticələrindən tədris proqramlarının tərtibində, metodik vəsaitlərin işlənilməsində mənbə kimi istifadə oluna bilər. Dissertasiya işindən Azərbaycan xalqının ictimai-siyasi fikrini və mədəniyyətini öyrənən, xüsusilə bu problemlə məşğul olan mütəxəssislər, humanitar sahədə çalışan müəllimlər faydalana bilər. Eyni zamanda qanunvericilik aktlarının hazırlanmasında, dini icmaların və qurumların, siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının fəaliyyətində istifadə oluna bilər. Dissertasiyanın faktik materiallarından, nəzəri müddəalarından və nəticələrindən əhalinin dini savadlanmasında, gənclərin mənəvi tərbiyəsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işi AMEA-nın A.A.Bakıxanov adına Tarix institutunun "Əliyevşünaslıq" şöbəsində yerinə yetirilmiş, müzakirə edilmiş və müdafiəyə buraxılmışdır. Dissertasiyanın başlıca müddəaları müəllifin müxtəlif məcmuələrdə nəşr olunmuş elmi məqalələrində, konfranslarda etdiyi məruzələrində öz əksini tapmışdır:

**Dissertasiyanın qurulusu.** Dissertasiya işi giriş, üç fəsil, yeddi yarımfəsildən, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## 11. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilmişdir. Həmçinin girişdə əldə edilən elmi yeniliklər verilmiş, tədqiqatın nəzəri və praktik əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **“Heydər Əliyev və Azərbaycanda dövlət-din münasibətləri”** adlanan birinci fəsili üç yarımfəsildən ibarətdir. **“Azərbaycanda dövlət-din münasibətlərinin tarixi aspektləri”** adlanan birinci yarımfəsildə Azərbaycanda dövlət və din münasibətlərinin tarixi kökləri araşdırılmış, dini münasibətlərin formalaşması, dövlət və dinin sıx qarşılıqlı əlaqəsi tədqiq edilmişdir. Azərbaycan tarixən müxtəlif mədəniyyətləri, dünyagörüşləri özündə yaşadan dəyərləri qorumaqla ümumbəşəri dəyərlərə sadiqliyini nümayiş etdirən, müxtəlif xalqlara, onların mənəvi dəyərlərinə, etnik-dini identikliyinə tolerant münasibətin mövcud olduğu nadir ölkələrdən biridir.

Etnik və dini cəhətdən rəngarəng olan Azərbaycan Respublikasında müxtəlif millətlərin nümayəndələri arasında həmişə dostluq münasibətləri, tolerantlıq ənənələri mövcud olmuşdur.

Əsrlər ərzində İslam yerli xalqların ənənəsinə nüfuz etməklə bərabər, özü də həmin ənənələrin təsirinə məruz qala bildi. İslamdaxili ixtilaflar onu müxtəlif dini təriqətlərə və cərəyanlara parçalaya bildi. XVI əsrdən etibarən, Azərbaycanda şiəlik məzhəbi üstünlük təşkil etməyə başladı.[1] Bununla belə, sünnilik də öz mövqeyini möhkəmlətməkdə davam edirdi.

Şimali Azərbaycanı işğal edəndən sonra, 1823-cü ildə çar Rusiyası hökuməti müsəlman əhali arasında ayrı-seçkilik yaratmaq məqsədilə Cənubi Qafqazda şiə müsəlmanlarının şeyxülislam vəzifəsini təsis etdi. 1829-cu ildə “Müsəlman ruhanilərinin hüquqları” haqqında fərman imzalandıqdan sonra, 1832-ci ildə sünni müsəlmanlarının müftisi vəzifəsi təsis edildi. 1872-ci ildə isə iki müstəqil – sünni və şiə ruhaniləri idarələri yaradıldı.[2]

1917-ci il fevral inqilabı Azərbaycan xaqının ictimai şüuruna və sosial həyatına böyük təsir göstərdi. Tanınmış tarixçi T.Sviyetoxovski yazır ki, həmin vaxt siyasi həyata təsir edə bilən, bu dövrdə yaranmış milli partiyaların hər biri öz baxışlarına görə millilik, panislamizm və sosializm ideyalarına əsaslanırdı.[3]

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Xalq Cümhuriyyəti elan olundu. Cümhuriyyətin mühüm nailiyyətlərindən biri də ölkədə müasir din-

---

[1] Юнусов А. Ислам в Азербайджане. Баку, 2004, с 8-13.

[2] Orucov H. Azərbaycanda din. Ən qədim dövrdən bu günədək. Bakı: İdrak, 2012, s 176.

[3] Светоховский Т. Русское правление, модернизаторские элиты и становление национальной идентичности в Азербайджане. //Азербайджан и Россия: общества и государства// Отв. ред. и сост. Д.Е. Фурман. М.: Летний сад, 2001, с 25.

dövlət münasibətlərinin, azad dini etiqad mühitinin yaradılması idi. Bununla da Şimali Azərbaycanda çarizmin İslam dininə qoyduğu qadağalar aradan qaldırılmış oldu.

Təəssüf ki, 23 aydan sonra, 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra onun ərazisini işğal edən Sovet Rusiyası burada öz hakimiyyətini qoruyub saxlamaq məqsədi ilə yerli müsəlmanların şüurunu "bolşevik" ideologiyasına uyğun dəişməyə başladılar. Bu məqsədlə Sovet hakimiyyəti qarşısında duran mühüm məsələlərdən biri "Mədəni inqilab" siyasəti idi. Adı çəkilən siyasətin əsasında dinə qarşı mübarizə və ateizmin təbliği dururdu.[1]

20-ci illərin ortalarından başlayaraq Sovet rejimi Azərbaycan SSR-də xalqın milli adət ənənələrinə, dini dünyagörüşünə qarşı mübarizəni daha da gücləndirdi. Dinə qarşı təbliğatı gücləndirmək məqsədilə 1924-cü ildə «Dinə qarşı mübarizə» komissiyası yaradıldı. Həmin ildə «Allahsızlar cəmiyyəti»nin yaradılması ilə dinə qarşı mübarizə yeni mərhələyə daxil oldu. Dinə qarşı mübarizə də inzibati metodlardan geniş istifadə olunması ona gətirib çıxarmışdı ki, təkcə 1929-cu ildə Azərbaycan SSR qəzalarında 120 məscid binası zəbt edilib məktəb üçün istifadəyə verilmişdi.[2] 1929- cu ilin seçki kampaniyası ərəfəsində ölkədə artıq 400-ə yaxın məscid bağlanmışdı.[3]

Məscid və kilsələrin bağlanması və onların məktəb üçün uyğunlaşdırılması əksər hallarda ruhanilərin, dini ideologiyanın respublika əhalisi arasında olan nüfuzunu qırmağa çalışan yerli partiya təşkilatlarının rəhbərliyi altında aparılır, onların bəziləri daha çox kilsə və məscid bağlamaq üçün sosializm yarışı metodlarından istifadə edirdilər. 1929-1937-ci illərdə respublikada bağlanmış külli miqdarda məscid, kilsə və s. dini obyektlərin tikililəri əksər hallarda məktəb, klub və ya anbar kimi istifadə edilirdi.[4]

1941-ci ildə Hitler Almaniyasının hücumu ilə başlanan müharibə ilk vaxtlar Sovet İttifaqında dinə və ümumiyyətlə İslama qarşı bir dəyişikliyə səbəb olmadı. Alman faşist rəhbərliyi müsəlman xalqları kartından öz məq-

---

[1] Səmədov E. Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması. Bakı: AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu. 2009, s 33.

[2] Мусаева ТА. Борьба за развитие народного образования в Азербайджане в годы первой пятилетки. Баку, 1964, с.44-45.

[3] Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. I cild (1920-1937). Bakı, 1989, s. 489.

[4] Bax: Azərbaycan tarixi, Yeddi cilddə, altıncı cild. Bakı, 2008, c. 292.

sədləri üçün istifadə etmək istəyirdi. 1941-ci ilin noyabrında Hitlerin əmrinə əsasən sovet əsirlərindən hərbi birləşmələrin yaradılmasına başlanıldı. Tezliklə Sovet hakimiyyətinə qarşı kəskin mövqedə olan minlərlə müsəlman bu çağırışa cavab verməli oldu.

Hitler Almaniyası Qafqaz xalqlarının müqavimətindən yararlanmaq istəyirdi. İran və İraqa soxulmaq üçün Qafqazın ələ keçirilməsi Faşist Almaniyası üçün əhəmiyyətli olduğundan Hitler komandanlığı müsəlmanların Sovet dövləti əleyhinə çıxışlarını dəstəkləyirdi. Hitlerin əmri ilə müsəlmanlara bir neçə müraciət qəbul edildi. Bunları nəzərə alaraq SSRİ rəhbərliyi İslama qarşı münasibətini dəyişməli oldu. 1942-ci ildə MAC, "Ateist" nəşriyyatı və "Allahsız" qəzeti və jurnalının işi dayandırıldı. Bu, hökuməti kilsə və məscidə münasibəti dəyişməyə məcbur etdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 14 aprel tarixli 17 saylı qərarına əsasən Cənubi Qafqaz Müsəlmanları Ruhani İdarəsi yaradıldı. Şeyxülislam Ağa Əlizadə ruhani idarəsinin sədri seçildi.[1]

50-ci illərdə Sovet hökumətinin din siyasəti fərqli çalarlar almağa başladı. Dövlət başçısı vəzifəsinə təyin edilən N.S.Xruşov cəfəng "vahid sovet xalqı" yaratmaq istəyi ilə çıxış etdi. Bu mənada, o, xalqların ruslaşdırma siyasətini əsas tutaraq dinin tədricən sıradan çıxmasına çalışırdı. Sov İKP MK 1954-cü ilin iyununda "Elmi-ateist təbliğatında böyük çatışmazlıqlar və onların aradan qaldırılması haqqında" və "Əhali arasında elmi-ateist təbliğatında buraxılan səhvlər haqqında" qərar qəbul etdi. Qərarda dini müəssələr əleyhinə bir sıra tədbirlərin həyata keçirilməsi qeyd edilirdi. Dərhal yerlərdə ruhanilərə qarşı təqiblər başladı və nəticə etibarı ilə Azərbaycan SSR ərazisində cəmi 16 məscid qaldı. Din əleyhinə aparılan kampaniya 1963-cü il Sov.İKP-nin iyul plenumunda müzakirə edildi.[2]

Sovet hakimiyyəti illərində İslam dininin tədqiqində də xüsusi ayrı-seçkilik mövcud idi. Digər dinlərin araşdırılması, xüsusən də zərdüştlüyün və xristianlığın tədqiqinə dair xeyli ciddi elmi işlər aparılmışdır. İslama dair elmi işlər "təbliğat xarakteri" kimi dəyərləndirilirdi.

Bununla belə, tarixən öz dini palitrası ilə fərqlənmiş Azərbaycan xalqı istər çar Rusiyası, istərsə də Sovet hakimiyyəti dövründə İslama qarşı

---

[1] Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı, Azərnəşr, 1991, s.77.
[2] Quliyev M.N. Azərbaycan SSR-də dövlət-din münasibətləri tarixi (1920-1991-cci illər) /Tarix üzrə elmlər dok. avtoreferatı. Bakı: 2010, s. 15.

təqiblərə baxmayaraq, öz mənəvi dəyərlər sisteminin mühüm hissəsi kimi onu qoruyub saxlamağa və yaşatmağa müvəffəq olmuşdur.

**I Fəslin "Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi dövründə xalqın mədəni-mənəvi dəyərlərinin qorunması sahəsində fəaliyyəti"** adlanan ikinci yarımfəslində göstərilir ki, Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın Birinci katibi - respublikanın siyasi rəhbəri seçilməsi ilə Azərbaycan xalqının tarixində yeni mərhələnin əsası qoyuldu. Onun respublikaya başçılıq etdiyi XX əsrin 70-80-ci illəri tariximizə təkcə böyük quruculuq illəri kimi deyil, həm də Azərbaycan xalqının milli-mədəni irsinin qorunub hifz olunması dövrü kimi daxil olmuşdur.

Heydər Əliyev respublika rəhbərliyinə gələn gündən xalqın milli ruhunu, milli mənəvi və mədəni inkişafı gücləndirmək, ölkənin gələcək müstəqilliyinin əsaslarını yaratmaq üçün fəal işə başladı. Demək olar ki, 1969-cu ilin iyulundan 1982-ci ildə Moskvaya yüksək vəzifəyə dəvət olunana kimi onun iştirakı ilə keçirilən bütün tədbirlərdə xalqın tarixi və mənəvi-mədəni həyatı ilə bağlı məsələlər müzakirə olunur və müvafiq qərarlar qəbul edilirdi.[1]

Həmin dövrdə Azərbaycan SSR həm iqtisadiyyatda, həm milli özünüdərketmədə, milli özünəqayıdışda, həm də elm və təhsil sistemində, eləcə də sosial-ictimai həyatda böyük bir bir intibah dövrü yaşayırdı. Heydər Əliyev öz zəngin təcrübəsi, yüksək intellekti, xalqımızın mənəvi irsinə sevgisi və qayğısı sayəsində Azərbaycan mədəniyyətinin, tarixinin, dilinin, ədəbiyyatının inkişaf perspektivlərinə dair uzunmüddətli strategiya hazırlayaraq dövrün mürəkkəb siyasi-ideoloji şərtlərinə baxmayaraq uğurla həyata keçirməyə başladı.

Tam qətiyyətlə demək olar ki, həmin dövrdə Heydər Əliyev Azərbaycanın milli-mədəni həyatında misilsiz yeniliklərin ideoloqu, təşəbbüsçüsü, ilhamvericisi və təşkilatçısı idi.

Mövcud çətinliklərə baxmayaraq, Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyi illərində xalqın özünüdərk, milli maraqlara xidmət tarixində bir dönüş oldu. Azərbaycan SSR-də bu illər ilk növbədə təhsil, mədəniyyət, incəsənət, milli mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi, quruculuq və tərəqqi dövrü də adlandırıla bilər. Nəticədə, 1970-1980-ci illərin birinci yarısı respublikanın ictimai-iqtisadi və sosial-mədəni

---

[1] Qasımlı M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı: Bakı Universitenin nəşriyyatı, 2006, s 26.

həyatında sürətli inkişaf mərhələsi olmuş, müstəqil Azərbaycan dövlətinin təməli qoyulmuşdur. Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövründə (1969-1982) ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başlanmışdır.

**I Fəslin “Heydər Əliyev və müstəqil Azərbaycanda dövlət-din münasibətlərinin təşəkkül tapması”** adlanan üçüncü yarımfəsilində 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsindən sonrakı mərhələ araşdırılmış, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi və dövlət-din münasibətinin tənzimlənməsində gördüyü işlər tədqiq edilmişdir.

Yarımfəsildə qeyd edilir ki, Ümummilli lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişi ilə milli-mənəvi dəyərlərimizə münasibətdə, xüsusən də dövlət-din münasibətlərində yeni mərhələ açılmağa başlayır. Müstəqillik illərində nümayiş etdirdiyi siyasi iradə bir daha göstərdi ki, istər sovet dövründə, istərsə də müstəqillik illərində onun dinimizə, milli-mənəvi dəyərlərimizə münasibəti dəyişməz qalmış, onlara hörmət heç bir zaman itməmişdır.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin dinlə bağlı apardığı siyasətin uğuruna arxayın olmaq üçün ilk növbədə onun rəsmi, siyasi dayaqlarını formalaşdırmağa çalışdı. O, bu istiqamətdə dünya ölkələrinin qəbul etdiyi prinsipləri əsas tutdu. Bu məqsədlə 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsini (ÜHİB ) rəhbər tutaraq ölkədə qanunvericilik bazasını yaratdı. Bu bəyannamənin ilk iki maddəsi bütün insanların bərabər olduğunu və bu bərabərliyin insanlara bəxş olunmuş ləyaqətə əsaslandığını göstərir. İnsan ləyaqətinin bərabərliyi ümumbəşəri insan hüquqlarının da bərabərliyinə rəvac verir. Burada “ümümbəşərilik” o deməkdir ki, bu hüquqlar hər kəsə şamil olunur və fərdin heç bir hərəkəti və heç bir səbəblə ondan alına bilməz. Məhz bu müddəalar və rəsmi qaydada Azərbaycan Respublikasının qoşulduğu bir sıra beynəlxalq müqavilələr Konstitusiyamızda və qanunlarda öz əksini tapdı.

İslam Konfransı Təşkilatına üzv olmağımız, müsəlman ölkələri ilə sıx diplomatik və iqtisadi əlaqələrin yaradılması Heydər Əliyev tərəfindən İslamın Azərbaycan dövlətçiliyindəki yeri və rolunu müəyyənləşdirmişdir.

Milli ideya, milli özünüdərk SSRİ dağılandan sonra Azərbaycan Respublikasında xüsusi əhəmiyyət kəsb etmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində müstəqil Azərbaycan dövlətində milli ideya milli quruculuğun əsas təməl prinsipi, dövlətçiliyin mühüm istinad

nöqtəsi kimi təşəkkül tapmışdır. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkədəki dini dözümlülük, ümumiyyətlə, tolerantlıq mühiti daha da möhkəmlənmiş, Heydər Əliyevin dövlət-din siyasətinə uyğun olaraq tolerantlıq dövlət həyatının prioritet istiqamətinə çevrilmişdir. Heydər Əliyevin səyi nəticəsində İslam dininin nümunəvi obrazı dünyaya nümayiş olundu. Azərbaycan Respublikasında məscidlərlə bərabər, çoxlu sayda kilsə, sinaqoq bərpa edildi, yeniləri tikildi. Dini fəaliyyətin tənzimlənməsi üçün Dini işlər üzrə Dövlət Komitəsi yaradıldı, dini təhsilin və dini təbliğatın hüquqi normativ aktları qəbul edildi.

Ümummilli lider hakimiyyətinin ikinci mərhələsində Azərbaycan Respublikasında insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırıldı, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olundu, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə tam şərait yaradıldı, Azərbaycan Respublikası dünyada tolerant dövlət imicini qazana bildi.

**"Heydər Əliyevin din siyasətinin əsas istiqamətləri"** adlı ikinci fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Heydər Əliyevin Azərbaycanda dini-mənəvi dəyərlərin və tolerantlıq mühitinin möhkəmləndirilməsində xidmətləri"** adlanır. Həmin yarımfəsildə qeyd edilir ki, bu gün dini dünyagörüş sistemi həyat və davranış tərzi kimi dünyada baş verən mürəkkəb, ziddiyyətli siyasi, iqtisadi və mədəni proseslərdə mühüm rol oynamaqda davam edir. İslam son onilliklərdə cəmiyyətə daha çox inteqrasiya edən dinlərdən birinə çevrilmişdir. Belə bir vaxtda Azərbaycan Respublikasinda dövlət və din münasibətlərinin tənzimlənməsində, uğurlu siyasətin əsaslarının qoyulmasında Heydər Əliyevin quruculuq fəaliyyətini, onun din siyasətinin rolu danılmazdır.

Prezident Heydər Əliyev dinə və dindarlara ehtiramla yanaşır, milli-əxlaqi mentalitetdə İslam əxlaqı normalarının əhəmiyyətini yüksək qiymətləndirir, onların inkişaf etdirilməsinə, yayılmasına hər cür yardım edirdi. O, nəinki İslam dininə, basqa dinlərə də hörmətlə yanaşır, onların da dini bayramlarının rahat şəkildə keçirməsinə şərait yaradırdı. 1995-ci il yanvarın 7-də Milad bayramı münasibətilə Bakıda Kamera musiqi salonunda keçirilən mərasimdə Heydər Əliyevin respublikanın pravoslav xristianlarına müraciətində deyilirdi: "İslam dini, Məhəmməd Peyğəmbər (s.ə.) İsa Peyğəmbərə ehtiramla yanaşmışdır. Məlum olduğu kimi, İslamın müqəddəs kitabı Qurani-Kərimin surələrindən biri də xristianlığa həsr edilmişdir.... Xristian dininə sitayiş edən vətəndaşlara da bizdə həmişə ehtiram göstərilmiş və onlar digər vətəndaşlarla bərabər hüquqlardan

istifadə etmişlər.... Azərbaycanda beynəlmiləlçilik hissi, bir-birinə qarşı dözümlü olmaq, Azərbaycan xalqının başqa xalqlara, xristianlara hörməti həmişə nümunəvi xarakter daşımışdı”.[1] Bütün bu tədbirlərin keçirilməsi Azərbaycanın tolerant ölkə kimi dünya ictimaiyyətinə tanıdılmasında əsaslı rol oynayırdı.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, 2014-cü ilə Azərbaycan ərazisində 1802 məscid, 5 pravoslav, 1 katolik, 4 gürcü pravoslav kilsəsi, 6 sinaqoq və digər ibadət yerləri fəaliyyət göstərir.[2] Hazırda ölkəmizdə 1997-ci ildən müxtəlif qeyri-hökumət təşkilatlarını, dini konfessiyaların nümayəndələrini birləşdirən Azərbaycan Respublikası Sülh və İnkişaf Alyansı tolerant və yeganə sülh təşkilatı olaraq qeyd olunma istiqamətində uğurlu fəaliyyət həyata keçirməkdədir. Bunlardan Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryani Yeparxiyası Pravoslav Dini İcması, Avropa Yəhudilərinin Baki Dini İcması, Bakı Dağ Yəhudilərinin Dini İcması, Gürcü Yəhudilərinin Dini İcması, Roma Katolik icması və başqa dini konfessiyaların adlarını çəkmək olar.[3]

**II Fəslin “Ulu Öndərin İslam dünyasının birliyi və həmrəyliyi uğrunda mübarizəsi”** adlı ikinci yarımfəslində Heydər Əliyevin dünyada İslam dininə, sivilizasiyasına qarşı artmaqda olan təhdidlərə diqqətlə yanaşmağı tövsiyə etməsi, İslam ölkələrinin qarşısında duran problemlərin həlli üçün həmrəylik nümayiş etdirməyin vacibliyi, bu kontekstdə o, öz tarixi, mədəniyyəti, dini etiqadı və adət-ənənələri ilə İslam aləminin ayrılmaz hissəsi olan Azərbaycan Respublikasının İslam dövlətləri ilə, bu dövlətlərin təmsil olunduğu beynəlxalq təşkilatlarla əlaqələrin genişlənməsinə xüsusi əhəmiyyət verməsi öz əksini tapmışdır.

Heydər Əliyev ölkəmizin İKT ilə əlaqələrinin əhəmiyyətini yüksək qiymətləndirərək göstərirdi ki, Azərbaycan keçmiş SSRİ respublikaları arasında bu təşkilata üzv olan ilk dövlətlərdən biridir. Biz bu təşkilatın üzvü olmaqdan çox məmmunuq və onun işində daim fəal iştirak etməyə maraq göstəririk.[4] O, İKT-nin imkanlarını dəyərləndirərkən qeyd edirdi ki, İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. III kitab. Bakı: Dekabr 1994 – iyun 1995, s. 106 .

[2] *Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet saytı* http://www.scwra.gov.az/

[3] Həsənli A. Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri. Bakı. Nur. Art, 2014, s 95.

[4] Azərbaycan beynəlxalq aləmdə. 5 cilddə. I cild. Bakı: Göytürk, 1996, s. 215.

nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır.[1]

Heydər Əliyevin xarici siyasət strategiyasında Azərbaycanın tarixi, dini, etnik tellərlə bağlı olduğu ölkələrlə əlaqələrin inkişaf etdirilməsi mühüm yer tuturdu. Qısa müddət ərzində Heydər Əliyev İslam dünyasının mühüm dövlətləri – Türkiyə, İran, Pakistan, Səudiyyə Ərəbistanı, Misir kimi ölkələrlə sıx mehriban qonşuluq münasibətləri formalaşdırmağa nail olmuşdur.

Dissertasiyanın **"Heydər Əliyevin din siyasəti müasir mərhələdə"** adlanan üçüncü fəsli iki yarımfəslə bölünmüşdür. **"Azərbaycan Respublikasında din-dövlət münasibətlərinin müasir vəziyyəti"** adlanan birinci yarımfəslində Ümummilli lider Heydər Əliyevin ölkədə əsasını qoyduğu din siyasəti, dövlət-din münasibətlərinin sonrakı dövrdə yeni reallıqlar nəzərə alınaraq uğurla davam etdirilməsi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasi strategiyanın din və dövlət münasibətlərini tamamilə yeni müstəviyə çıxarması, onun səyləri nəticəsində din və dövlətin qarşılıqlı əlaqələrinin, dövlət strukturları ilə dini qurumlar arasında münasibətlərin sivil mexanizmlərinin yaradılması, müxtəlif konfessiyalar arasında dinc və mehriban əməkdaşlıq və birgəyaşayış mühitinin təşəkkül tapması kimi məsələlər öz əksini tapmışdır.

Məscidlərin bərpasında və yenilərinin tikilməsində Ulu Öndər Heydər Əliyevin işini davam etdirən İlham Əliyev bu illər ərzində çoxlu sayda məscid və pirlərin, ziyarətgahların bərpasına vəsait ayırmışdır. Bu işdə onun yaxın silahdaşı, Heydər Əliyev Fondunun prezidenti, birinci xanım Mehriban Əliyevanın da rolu böyük olmuşdur. 2004-cü ildə Naxçıvandakı "İmamzadə" kompleksinin, 2007-ci ildə Bakıda "Pir Həsən" ziyarətgahının, 2007-2008-ci illərdə təmir olunan Naxçıvandakı "Came" məscidinin, 2008-ci ildə "Bibiheybət" ziyarətgahlarının, 2008-ci ildə İçərişəhərdə yerləşən "Çümə" məscidinin, 2008-ci ildə Gəncədə "Şah Abbas" məscidinin, 2009-cu ildə Bakıdakı "Təzəpir" məscid-kompleksinin, 2010-cu ildə Gəncədə yerləşən "İmamzadə", 2011-ci ildə isə "Əjdərbəy"

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Məktublar. Müsahibələr. III kitab. Bakı: Dekabr 1994 – iyun 1995, s. 9-10.

məscidi kimi yüzlərlə xalqın inam yerlərində təmir-bərpa işlərininin həyata keçirilməsi dövlətin dini siyasətinin uğurla həyata keçirildiyini sübut edir.

İlham Əliyev tərəfindən qeyri-müsəlman dini mədəniyyət ocaqlarının təmir-bərpa işləri ilə bağlı xüsusi sərəncamlar verilmişdir. Bunların arasında 2003-cü ildə Şəkidə “Kiş”, 2007-ci ildə “Ağaoğlan” məbədlərinin bərpası, 2011-ci ildə Dağ yəhudiləri üçün yeni sinaqoqun tikintisini göstərmək olar.

2014-cü il dekabrın 26-da Heydər məscidinin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də qeyd etmişdir: “Son 11 il ərzində Azərbaycanda 250-yə yaxın məscid tikilmiş və ya təmir edilmişdir. Xalqımız üçün çox böyük dəyər kəsb edən Bibiheybət, Təzəpir, Əjdərbəy, 743-cü ildə tikilmiş Şamaxı məscidi onların arasındadır. Hazırda İmamzadə dini, tarixi, mədəni mərkəzində təmir-bərpa işləri aparılır. Bu gün ölkəmizin ən böyük, möhtəşəm, əzəmətli Heydər məscidi açılır. Azərbaycanda digər başqa dinlərin məbədləri, o cümlədən dövlət vəsaiti hesabına tikilir, təmir edilir”.[1]

Ölkədə dövlət səviyyəsində həyata keçirilən, dinlər və mədəniyyətlərarası ünsiyyəti, dialoqu özünün strateji həyat prinsipinə çevirən siyasi kurs xalqamızın milli mənəvi və tarixi ənənələrinə əsaslanmaqla müasir dövrün tələblərinə uyğundur. Bu siyasət qloballaşan dünyanın sosiomədəni və geosiyasi perspektivlərinin mütərəqqi istiqamətlərinə uyğun gəlir, belə ki, müxtəlif xalqları və ölkələri qanlı qarşıdurmalar və sonsuz münaqişələr girdabına sürükləyən ksenofobiya, milli, dini və irqi ayrı-seçkilik, soyqırımı ideologiyalarına qarşı çıxmaqla, ümumbəşəri inkişafın zəmanətçisinə çevrilir. Təqdirə layiqdir ki, Azərbaycan dövləti məhz bu mütərəqqi siyasəti özünün strateji xəttinə çevirmişdir. Azərbaycan milli dövlətçiliyinin zəngin tarixi ənənələrindən qaynaqlanan multikulturalizm XX əsrin sonlarında məhz Ümummilli lider Heydər Əliyevin yaratdığı sabit və dayanıqlı idarəçilik sistemi çərçivəsində ölkə siyasi gündəmində layiqli yer tutmuşdur.

Heydər Əliyevin uzaqgörən din siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev ölkəmizin beynəlxalq aləmdə siyasi nüfuzunu qaldırmaq məqsədi ilə dünyada mövcud olan tanınmış dini icmalarla da münasibətlərini sabit müstəviyə salmaqdadır.

---

[1] “Azərbaycan” qəzeti, 27 dekabr 2014-ci il.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, İlham Əliyev də Ümummilli lider Heydər Əliyev kimi hər il Milad və Pasxa bayramları ilə əlaqədar bütün dünyanın katoliklərini təbrik etmək ənənəsini davam etdirir.[1]

Ölkədə dövlət-din münasibətləri milli-tarixi ənənələrə əsaslanır və beynəlxalq hüquq normaları ilə tənzimlənir.

III Fəslin ikinci yarəmfəsli **"Azərbaycanın multikulturalizm və dini tolerantlıq təcrübəsi"** adlanır. Bu yarımfəsildə Ulu Öndər Heydər Əliyevin irsinin layiqli davamçı kimi İlham Əliyevin multikultiralizim və tolerantlıq istiqamətində gördüyü işlər araşdırılmışdır.

Dünyada dini və etnik ziddiyyətlərin, münaqişələrin olduğu ölkələrlə yanaşı, müxtəlif mədəniyyətlərin və dinlərin, eyni zamanda bərabərhüquqlu və dinc şəraitdə yaşadyan ölkələrin olduğunun şahidiyik. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin din və dövlət münasibətlərində qarşıya qoyduğu əsas məsələlərdən biri də həmin təcrübənin davam etdirilməsi və daha da möhkəmləndirilməsidir.

Bu gün də azərbaycanlıların sayca çoxluq təşkil etməsinə baxmayaraq, ölkəmiz polietnik dövlətdir. Azərbaycan Respublikası udinlər, qrızlar, xınaqlıqlar, tatlar, talışlar, ləzgilər, avarlar, dağ yəhudiləri kimi azsaylı millətlərin tarixi vətənidir. Sovet hakimiyyəti illərində və sonrakı dövrlərdə də Azərbaycan Respublikasını özünə vətən seçmiş digər milli və mədəni qruplar da vardır. Hər bir qrup öz millətinin unikal dəyərlərinin daşıyıcısı kimi çıxış etməkdədir. Bu gün təkcə Bakı şəhərində 20-dən çox etnik qrupun mədəniyyət cəmiyyətləri fəaliyyət göstərir.

Multikulturalizm ideyalarının hüqiqi bazası da Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun bilavasitə iştirakı ilə tərtib olunmuş Azərbaycan Respublikasının qanunları hər bir mədəniyyətə bərabər hüquqlar təmin etməklə birinin digərinin üzərində üstünlüyünə imkan vermir. Azərbaycan xalqı tarixən öz milli mənəvi irsi və tolerantlıq ənənələri ilə nümunə ola biləcək təcrübə nümayiş etdirmişdir. Çoxmillətli və çox konfessiyalı ölkə kimi Azərbaycan Respublikası bu sahədə öz təcrübəsi ilə dünya miqyasında çıxış etməkdən çəkinmir. Prezident İlham Əliyev multikulturalizmlə bağlı qeyd etmişdir: "Multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasəti və həyat tərzidir. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar. Nitqlər. Bəyanatlar. Müsahibələr. Məruzələr. Məktublar. Müraciətlər. XXII kitab, s. 30.

biridir. Biz diqqəti ona görə bu məsələlər üzərində cəmləşdiririk ki, bu mövzuya yanaşmalar müxtəlifdir. Təəssüf ki, belə fikirlər də var ki, bəzi ölkələrdə multikulturalizm iflasa uğrayıb, özünü doğrultmayıb. Bunlar çox narahatlıq doğuran bəyanatlar, tendensiyalardır. Əgər bu həqiqətən belədirsə, onda bu ciddi müzakirə mövzusudur. Azərbaycanda isə belə hesab edirəm ki, biz öz siyasətimizlə də, cəmiyyətin durumu ilə də sübut edirik ki, elə deyil, multikulturalizm yaşayır. O yaşayır, möhkəmlənir, dərin köklərə malikdir və gələcəkdə bəşəriyyətin inkişafının yeganə yoludur".[1]

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan xalqının multimədəni ənənələrinin qorunub saxlanılması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikası sivilizasiyalararası dialoq, multikultural dəyərlərin qorunub saxlanılması, dini tolerantlığın, etnik-mədəni müxtəlifliyin inkişaf etdirilməsi kimi humanitar problemlərin müzakirə edildiyi məkana çevrilmişdir. Multikultural, tolerant mühitin qorunub saxlanılması və təşviqi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində ümumiləşdirmələr aparılmış, tədqiqqat prosesində əldə olunan nəticələr öz əksini tapmışdır

[1] Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı http://www.president.az/

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Heydər Əliyevin XX əsrin 60-80-ci illərində dini-mənəvi dəyərlərə münasibəti //AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 41-43-cü cild Bakı: 2012, s. 235-241.
2. Heydər Əliyevin dinlərə münasibəti //AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 60-cı cild Bakı: 2016, s. 149-157.
3. Heydər Əliyevin din siyasəti //Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tələbə və gənc tədqiqatçıların "Gənclər və Yeni texnologiyalar" mövzusunda respublika elmi-texniki konfransının materialları, Bakı: 2015, s. 489-491.
4. Heydər Əliyevin qeyri-müsəlman icmalarına münasibətinin əsas xüsusiyyətləri //"Qafqazda mədəni-dini irsin qorunması" mövzusunda beynəlxaq konfransın tezislər toplusu, Bakı: 2015, s.78-82.
5. Qloballaşma dövründə Heydər Əliyevin milli-mənəvi dəyərlərə münasibəti //Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası. N-4 Bakı: 2015, s. 120-126.
6. Heydər Əliyev və dini tolerantlıq siyasəti //Tarix və onun problemləri, Nəzəri, elmi, metodik jurnal, №3 Bakı: 2015, s. 51-57.
7. İlham Əliyev multikultiralizimin himayədarıdır //Mədəni müxtəliflik Dünya və Azərbaycan, Beynəlxaq elmi-praktik konfrans, Bakı: 2016, s.140-143.
8. Религия в Азербайджане в первые годы советской власти //The Caucasus and the world International scientific journal, № 20, Tbilisi: 2015, c. 53- 57.
9. Ulu Öndər Heydər Əliyevin İslam dünyasının birliyi uğrunda mübarizəsi //Naxşıvan Dövlət Universiteti (İctimai elmlər seriyası) N 2, Naxçıvan: 2017, s.144-147.
10. Azərbaycan Respublikasında din və dövlət münasibətləri //Gəncə Dövlət Universiteti. Elmi xəbərlər (fundamental, humanitar və təbiət elmləri seriyası) N 2, Gəncə: 2017, s.240-246.
11. Религиозная толерантность в Азербайджане// Міжнародні відносини, N 4, Украіни: 2018 (çapdadır)

***Бахрамова С.Ш.***

## «Гейдар Алиев и религиозная политика в Азербайджанской Республике»

## РЕЗЮМЕ

Диссертационная работа по теме «Гейдар Алиев и религиозная политика в Азербайджанской Республике» посвящена одной из актуальных проблем современной истории Азербайджанской Республики.

Во введении диссертации обосновывается актуальность темы, анализируется степень изученности, раскрываются хронологические рамки исследования, степень разработанности, источниковедческая база, цели и обязанности, научно-практическая ценность.

В первой главе диссертационной работы «Гейдар Алиев и государственно-религиозные отношения в Азербайджане» исследуются исторические корни государственно-религиозных отношений, формирование религиозных отношений, взаимосвязь государства и религии.

Вторая глава диссертационной работы называется «Основные направления религиозной политики Гейдара Алиева». В этой главе раскрываются вопросы регулирования религиозных отношений, отношение Общенационального лидера Гейдара Алиева к национально-культурным ценностям, в частности к государственно-религиозным отношениям, указы, направленные на возрождение религиозных ценностей, проведение религиозных мероприятий и форумов, восстановление ряда религиозных памятников и мечетей, освещено особое внимание государства религиозным ценностям.

Третья глава диссертационной работы «Религиозная политика Гейдара Алиева на современном этапе» посвящена религиозной политике, основу которой заложил Общенациональный лидер Гейдар Алиев, успешному продолжению государственно-религиозных отношений, политической стратегии Ильхама Алиева, взаимоотношений государства и религии, созданию цивильных механизмов отношений государственных структур и религиозных учреждений, созданию условий для мирного существования и сотрудничества различных конфессий.

В заключении обобщаются результаты исследования.

**Bahramova S.Sh.**

**“ Haydar Aliyev and the religion policy of the Republic of Azerbaijan”**

## SUMMARY

The presented dissertation “Haydar Aliyev and the religion policy of the Republic of Azerbaijan” explores one of the most topical problems of Azerbaijan history.

The dissertation consists of an introduction, three chapters, conclusion, and the list of references and sources

**In introduction** the topicality, chronological framework, the level of study, and the sources of the thesis are identified, moreover goals and duties, the methods of research, its scientific novelty, as well as the theoretical and practical significance of the study are explored in PhD thesis.

**First chapter** which dedicated to “Haydar Aliyev and state-religion relations in Azerbaijan” deals with the investigation of historical roots of state-religion relations, the formation of religious relations, and close ties between state and relations in Azerbaijan.

Second chapter is “The main directions of the religious policy of Haydar Aliyev”. In this chapter the attitude of National Leader Haydar Aliyev to our national-moral values, especially state-religion relations, decrees and orders related to the thriving of religious values, holding interreligious forums, the restoration of some religious monuments and mosques, the special attention and care of state to the religious beliefs and values of population in regulation of state-religion relations and foundation of successful policy is highlighted.

Third chapter is “Haydar Aliyev’s religious policy in contemporary period”. The author investigates the foundation of religion policy in Azerbaijan, the successful development of state-religion relation in further period. Besides the main points such as political strategy of the president of Azerbaijan Republic Ilham Aliyev, the establishment of civil mechanism between state organizations and religious institutions, peaceful coexistence and corporations between different confessions were explored in this chapter.

**In conclusion,** is summed up the general results of the research and made conclusion of the topic.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАКДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ ИМ. А.А. БАКИХАНОВА**

*На правах рукописи*

**СЕВИЛЬ ШИВАХАН гызы БАХРАМОВА**

# ГЕЙДАР АЛИЕВ И РЕЛИГИОЗНАЯ ПОЛИТИКА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Специальность: 5503.02-Отечественная история

# А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ-2018**